# Orxan Pamukun "Qara kitab" romanında dekonstruksiya

**Mehman Həsənli**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mehman.hesen@gmail.com

**Annotasiya.** Məqalədə çağdaş Türkiyə romançılığının dünyada ən tanınmış nümayəndələrindən olan Orxan Pamukun "Qara kitab" romanının özündən əvvəl yazılmış müxtəlif mətnlərlə əlaqəsi, onların qovşağında hansı şəkildə yerləşməsi araşdırmaya cəlb edilmişdir. Müxtəlif mətnlərin dekonstruksiya olunaraq, yeni mətnə daxil edilməsi və vahid bir süjetdə təqdim olunması texnikasını Orxan Pamuk "Qara kitab" romanında uğurla tətbiq etmişdir. Bir mətndə həm Şərq, həm də Qərb mənbələri, 1980-ci illər Türkiyə gerçəklərinin təsviri məqsədilə "Qara kitab" romanında oxuculara təqdim edilmişdir. Məqalədə "Qara kitab" romanının simvolik qatı, dövrün səciyyəvi xüsusiyyəti olan kimlik axtarışı və müxtəlif mətnlərlə əlaqələri tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** Orxan Pamuk, "Qara kitab", dekonstruksiya, kimlik, intertekstuallıq

**Məqalə tarixçəsi:** göndərilib – 05.12.2022; qəbul edilib – 16.12.2022

# Deconstruction in the novel "The Black Book" by Orhan Pamuk

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: mehman.hesen@gmail.com

**Abstract.** In the article is studied the novel "The Black Book" by Orhan Pamuk, one of the well-known novelists of modern Turkey in the world, its relation with various texts written before it and how they are located in the combination of the texts. Orhan Pamuk has successfully used the technique of deconstructing texts and adding them to a new text, presenting them in a plot in the novel "The Black Book". The Eastern and Western sources have been presented to readers in a text form in the novel "The Black Book" in order to explain the realities of Turkey in 1980s. In the article symbolic aspects of the novel "The Black Book", identity search that is characteristic feature of the period and the connection with different texts are researched.
**Keywords:** Orhan Pamuk, Black Book, deconstruction, identity, intertextuality

**Article history:** received − 05.12.2022; accepted − 16.12.2022

## Giriş / *Introduction*

1970-ci illərin sonu və 1980-ci illərdən etibarən Türkiyə ədəbiyyatında roman janrı transformasiya prosesindən keçərək, yeni keyfiyyətlər qazanmağa başlamışdır. Bu prosesin əsas yaradıcı şəxsi, heç şübhəsiz ki, Orxan Pamuk olmuşdur. Orxan Pamuk 1989-cu ildə tamamladığı "Qara kitab" romanı ilə təkcə öz yaradıcılığını deyil, ümumilikdə bu dövr türk romançılığını yeni bir mərhələyə yüksəltmişdir. Əhatə etdiyi çoxcəhətli problematikası (insanın yadlaş-

ması, kimlik axtarışı, 1980-ci illər Türkiyədə ictimai-siyasi mühitin reallıqlarının təsviri), çoxsaylı tarixi və müasir əsərlərin (Mövlanə və Şəmslə bağlı əhvalatlar, "Min bir gecə nağılları", Fəzlullah Nəimi və hürufizmlə bağlı mətnlər, Şeyx Qalibin "Hüsn və Eşq" poeması, Marsel Prustun "Albertinin qeybi" romanı, Frans Kafkanın "Çevrilmə"si və s.) mətnlərarası əlaqə kontekstində kompozisiyaya daxil edilməsi Türkiyə romançılığında yeni bir hadisə idi. Dünyaca məşhur nəzəriyyəçi Jak Derridanın elmə gətirdiyi dekonstruksiya, dünyanın vahid mətn kimi qavranılması Orxan Pamukun "Qara kitab" romanında əsas janr, təyinedici element kimi iştirak etməkdədir.

## Əsas hissə / *Main Part*

"Qara kitab" mətni simvollara bürünmüşdür. Bu elementlər romanda məğzin ifadə olunmasında açar funksiyasını icra edərək, mühüm detallar kimi çıxış edir. Dincliyi və sonsuzluğu ifadə edən mavi rəng əsərdə simvola çevrilərək dəfələrlə təkrarlanır. Babanın mavi yuxuları "Bütün günü bir-birilərinə təkrarladıqları əhvalatlar kimi, babanın hərdənbir gözləri parıldaya-parıldaya danışdığı yuxusu da maviydi" [3, s.13], Qalibin yuxusundakı mavi qız "Məktəbə gecikdiyi o səhərdə Qalib yuxusunda məktəbə gecikdiyini gördü. Kim olduğundan baş açа bilmədiyi mavi saçlı gözəl bir qızla əlifbanın son səhifələrinin oxunacağı məktəbdən uzaqlaşan bələdiyyə avtobusundaydılar" [3, s.18], Röyanın yorğanının mavisi "Röyanın üstündəki yorğanın mavisiylə bərbərin babadan açıb ona bağladığı örtüyün mavisinin ona eyni narahatlığı verdiyi barədə düşünmüş..." [3, s.19] simvola çevrilərək, məna çaları yaratmışdır.

"Dünyanı sonsuz mətn kimi" [6] qavramağın və bütün mətnlərin məğzində bir tarixçənin durduğunu, həyatın da, taleyin də bir mətn kimi təkrarlanmasını Orxan Pamuk romanda "özüyazan yaşıl qələm"lə simvollaşdırıb. Romanda tez-tez məlum yaşıl qələmin adı çəkilir. Cəlal Salik 24 il əvvəl ilk yazılarını bu qələmlə yazmışdır. Daha sonra Qalibə verdiyi bu qələmlə Röya on doqquz kəlməlik son məktubunu qələmə almışdır. Yaşıl qələm simvol kimi obrazları izləyir, onların taleyində qəribə şəkildə olsa da iştirak edir. Hər şeyi yazan, hər şeyə şahidlik edən "yaşıl özüyazan qələm" sonda Cəlalın ölümündə qeyri-adi şəkildə iştirak edir. "Başqa bir güllə pencəyinin sol cibindəki mürəkkəblə yazan qələmi parçalamış (bu təsadüfi rəmzdən bütün qəzetlər həyəcanla yapışmışdılar), beləcə, Köşə yazarının ağ köynəyi qandan çox, yaşıl mürəkkəbə bulaşmışdı" [3, s.466].

Yaşıl özüyazan qələmin şahidlik missiyasını həm Cəlalın yazılarında vurğuladığı, həm də Qalibin sanki onu izləyirmiş kimi hiss etdiyi göz simvolu əvəz edir. Qalibi də, Cəlalın eyniadlı köşəsində onu da və min illər öncə baş verənləri də kənardan bir göz görür, izləyir və hər şey təkrar olunur. Evə iyirmi il fərqlə eyni fəhlələr gəlir və hər şeyin təkrarlanması baş verir. "...yüzilliklərin o tərəfindən gələn təfərrüatların bir-birinə rast gəlməsi – eynilə əvvəlcədən təsəvvüründə canlandırdığı Boğaziçi vadisində Olimpli Bizans pullarıyla "Olimpos" qazlı su şüşələri qapaqlarının bir-birinə rast gəlməsi kimi..." [3, s.28]

1980-ci illərin gerçəkliyindən doğan və Orxan Pamukun romanlarında əsas mövzularından birinə çevrilən kimlik axtarışı "Qara kitab"da əsas, qırmızı xətt kimi çıxış etməkdədir. Bütün kitablarının bundan əvvəlki kitabının içindən doğduğunu [4, s.136] söyləyən Orxan Pamukun "Bəyaz qala"dan Osmanlı hocası kimi "Qara kitab"da da özünü axtaran, cəmiyyətdəki ziddiyyətlər qarşısında kim olduğunu dərk etməyə çalışan Qalib obrazını görmək mümkündür. "Bəyaz qala"dan fərqli olaraq, "Qara kitab"da bu özünüaxtarma prosesi dolanbac yollardan keçir, yazıçı əsrlər öncə baş verənləri, yazılmış mətnləri bu axtarış prosesinə cəlb edir. 1980-ci illər Türkiyəsindəki siyasi proseslər, sol-sağ mücadilələri "Səssiz ev"də olduğu kimi, "Qara kitab"da da əsas xətt kimi keçir. "Səssiz ev"də olduğu kimi, burada da başlanğıc nöqtəsi sayılan, əsas hadisələrin ətrafında dönüb-dolaşdığı bir ev vardır.

Qalibin Naimlə birlikdə arxivdə apardığı araşdırmalar, Cəlal Salikin evində Fateh Meh-

met Üçüncünün "Hərflərin sirləri" əsəri üzərində hürufi araşdırmaları mətnə akademik məzmun gətirməklə bərabər, kimlik axtarışlarının dərinliyini və məzmununu ifadə edir. Romanda əsas süjet xətti Qalib-Röya-Cəlal üçbucağı üzərində qurulub. Digər iki bucaqdakılar Qalibə nəzərən mövcuddur. Röya və Cəlal haqqında söhbətlər romanda əsas yer tutsa da, şərti xarakter daşıyaraq, Qalibin özünüaxtarış prosesinin elementinə çevrilir. Röya Ələəddinin dükanında meyiti tapılana qədər romanda, demək olar ki, iştirak etmir. Cəlalın sadəcə yazıları mövcuddur. Cəlalın, Qalibin və Röyanın müxtəlif səslərdə danışa bilməsi müəllif tərəfindən bəzən obraz qarışıqlığına və nəticədə müxtəlif suallara gətirib çıxarır. Bu da sirrin gizli qalması, Cəlalın, Röyanın obraz kimi metafizik mahiyyətinin itməməsi üçün müəllifin düşündüyü taktikadır. Qalib Röyanı axtararkən, bəzən müxtəlif cildlərə girir, müxtəlif adlar və səslərlə danışır. Hətta müəllif əsərdə Röyanın şəxsən iştirak etdiyi yeganə telefon dialoqunda iştirakına şübhəylə yanaşır. Həmin danışığın həqiqətən Röyanın özü ilə olmasına dair Qalibi müəmmaya salır. "Sonrakı günlərdə bu telefon danışığını dəfələrlə, dönə-dönə xatırlamaq məcburiyyətində qalanda, Qalib yalnız o qeyri-müəyyən əsnəyin yox, danışdıqları sözlərin də nə qədərini eşitdiyi barədə qərar verə bilməyəcəkdi. Röyanın dediklərini həmişə dəyişdirə-dəyişdirə və şübhəylə xatırladığına görə: "Sanki danışdığım Röya yox, bir başqasıydı", – deyə fikirləşir, həmin başqasının onu aldatdığını uydururdu" [3, s.276].

Qalibin hürufi mistikasının sirlərini mənimsəyib, müridi sayılan Cəlala çevrilməsi, onun yerinə yazılar yazması kimlik axtarışının zirvəsini təşkil edir.

Roman boyu insanın özünüdəyişmə, başqasıolma cəhdləri, kimlik axtarışı kimi diqqət mərkəzinə çəkilir. Röya-Belkis-Qalib-Nicat dördbucağında bir-birinə çevrilmə cəhdləri, digərinin taleyini yaşama arzusu qabarıq şəkildə görünür. Belkislə Qalibin məktəb dövründən uzun illər sonra yenidən görüşməsi və öz həyatını hələ də axtarması "Mənim Röyanı yamsıladığım kimi, özünün də səni yamsılamalı olduğunu başa düşmüşdü... İnsanın özü olmasının nə qədər çətin olduğunu bilirəm... İnsanın niyə öz həyatını yox, başqa adamın həyatını yaşamaq istədiyini neçə illər keçəndən sonra da dərk eləmirəm" [3, s.214-215].

Qalib bir müddət sonra Cəlalın evində yaşamağa başlayır. Onun paltarlarını geyinir, özünü onun kimi aparar, yazılar bitdiyində, tam onun yerinə keçdiyini hiss edir, o olduğunu dərk edir və onun yerinə yazılar yazaraq redaksiyaya verir. Hətta ingilis jurnalistləri ilə onun yerinə görüşür. Beləliklə, əsərdə kafkavari bir çevrilmə baş verir.

"Bir halda ki mən oyam, onda artıq niyə axtarıram ki?" [3, s.276] – fikri klassik düşüncədə həqiqət mərhələsinə çatmaq, Tanrıya qovuşmaq idealının alluziyası kimi çıxış edir. Məhəmməd Füzulinin "Leyli və Məcnun"unda Məcnunun Leyliyə çevrilməsi, fiziki mahiyyətin deyil, ruhi qovuşmanın, özünə, yəni Tanrıya qovuşmanın zəruriliyini ifadə edir:

*Gər mən mən isəm, nəsən sən ey yar,*
*Və sən sən isən, nəyəm məni-zar.* [2, s.199]

Bu baxımdan Şərq ədəbiyyatında Orxan Pamukun sonuncu istinad etdiyi mətn Şeyx Qalibin "Hüsn və eşq" poemasıdır. Eşqin Qəlblər ölkəsində Hüsn naminə sınaqdan çıxması, iksir axtarması və sonunda elə bir iksirin mövcud olmadığını dərk etməsi və nəticədə özünü tapması romanda kimlik axtarışı kimi intertekstin yekunu, zirvəsi xarakterindədir.

Postmodern nəzəriyyənin əsas cərəyan elementlərindən olan intertekstuallıq, mətnin digər müxtəlif mətnlərlə əlaqədə yazılması Orxan Pamukun nəsrində geniş istifadə olunmuşdur. Bu baxımdan, "Qara kitab" romanı xüsusilə seçilməkdədir. Orxan Pamukun "Qara kitab"ı intertekstuallıq kontekstində Şərq və Qərb ədəbiyyatını özündə birləşdirir, intellektual nəsrin 1980-ci illərdə ən mükəmməl örnəklərindən biridir. Romanda həm Şərq, həm də Qərb ədəbiyyatının müxtəlif mətnləri ilə intertekstual əlaqələr vardır. Şərq ədəbi-estetik fikrindən "Min bir gecə nağılları", Mövlanə və Şəmslə bağlı əhvalatlar, Hürufi mətnlər, Şeyx Qalibin "Hüsn və Eşq" poeması, Qərb romanlarından "Marsel Prustun "Albertinin qeybi" romanı, Frans Kafkanın "Çevrilmə"si ilə intertekstual əlaqəyə girən "Qara kitab" 1980-ci illər Türkiyə ictimai-siyasi həyatının bir çox cəhətlərini göstərən roman nümunəsidir. Qeyd etdiyimiz əsərlər içərisində

Qərb ədəbiyyatından Marsel Prustun "Albertinin qeybi" romanı, Şərqdən isə Şeyx Qalibin "Hüsn və eşq" poeması kompozisiya quruluşunun əsas istinad nöqtələri kimi çıxış edirlər. Prustun romanında Albertin bir məktub yazaraq qeyb olması və müəllif-təhkiyəçinin əsər boyu Albertini axtarması, əslində isə özünün dərk etməkdə çətinlik çəkdiyi hisslərinin mahiyyətini cərrah dəqiqliyi ilə aşkarlamaq cəhdlərinə şahidlik edirik. Albertinlə münasibətinin bəsit olduğunu düşünən və qısa bir zamanda ayrılmaq niyyətində olmasına rəğmən bir gün onun məktub yazaraq, çıxıb getməsi qəhrəmanın içində özünün də bixəbər olduğu təlatümlü hisslərin baş qaldırmasına səbəb olur. Modernist fəlsəfənin başlıca prinsiplərindən olan insanın sona qədər dərkolunmazlığı, irrasionallığı prinsipi romanda müəyyənedici amil kimi çıxış edir. "Mənim nəzərimdə bir heç olduğunu zənn etdiyim şey, demək ki, əslində bütün həyatım, hər şeyimdir. İnsan özünü nə qədər az tanıyır... zəkamız nə qədər kəskin olursa olsun, qəlbimizdə yer alan tək-tək duyğuları aşkarlaya bilmir; çox vaxt uçan halda var olan duyğularımız, onları aydınlaşdıracaq halla qarşılaşmadıqları müddətdə özlərini bəlli etməzlər. Öz qəlbimin içini açıqca görə bildiyimi zənn edərkən yanılmışdım" [1, s.7-8].

"Qara kitab"dakı Röya da 19 kəlməlik məktub yazaraq, Albertin kimi qeyb olur. Prustun romanındakı Albertindən fərqli olaraq, Röya adı kimi müəyyən qədər mistik obraz olaraq xarakterizə edilir. Çünki əsərdə o, həm var, həm də yoxdur. Müəllif mümkün qədər Röyanın fiziki varlığını inkar etməyə və bu vasitəylə Qalibin daxili dünyasının, özünün axtarışlarına diqqəti fokuslaşdırmağa çalışmışdır. Bu baxımdan əsərin sonrakı gedişatında Şərq ədəbiyyatı xətti, Şeyx Qalibin "Hüsn və Eşq" poemasının motivləri, həmin əsərlə mətnlərarası əlaqə aparıcılıq qazanmağa başlayır. Röyanın məktubu (halbuki yazıçı sona qədər həmin 19 kəlməlik məktubu oxuculara təqdim etmir, sirli bir müəmma kimi qalır), Qaliblə qısa telefon danışığı (Röya, Qalib və Cəlal səslərini dəyişərək, başqa-başqa adamlar kimi danışdıqları üçün, həmin danışığın Röya ilə olmasını müəllif özü şübhə altına salır) və sonda Əlaəddinin dükanında ölü tapılması (Qalibin Röyanın öldürülməsini olduğu kimi yuxuda görməsi burada da xəyali, mifik mahiyyət daşıdığından xəbər verir) çıxması şərtilə Röya fiziki olaraq əsərdə iştirak etmir.

Romandakı Cəlal Salik obrazının da Röya kimi varlığı metafizik mahiyyət daşıyır. Demək olar ki, Cəlal hər hansı dialoqda iştirak etmir, yalnız xatirələrdə, kiminsə dilindən onun haqqında bəhs olunur. Yazıçı Qalib-Cəlal xəttiylə daha geniş və zaman baxımından daha qədim mətnlərlə əlaqə qurmuşdur. Qədimliyinə görə ilk istinad olunan tarixi mənbə Mövlanə Cəlaləddin Rumi ilə Şəms Təbrizi arasındakı münasibətlərdir. Şəms Təbrizinin öldürülərək quyuya atılması və bunu bildiyi halda, Mövlanənin onu tamam başqa bir yerdə, Şamda axtarması hadisəsi bir yandan mifologiyadakı ölümün aldadılması və ya ölümdənqaçma motivi kimi izah edilsə də, digər yandan Mövlanənin bunu bəhanə edərək özünü axtarması, eyni şəkildə Cəlalın bir vasitəyə çevrilərək Qalibin özünü axtarması arasında paralelliklər mövcuddur. "Şəmsin öldürüldüyünə, meyitinin quyuya atıldığına heç cür inanmırdı, üstəlik ona burnunun ucundakı quyunu göstərmək istəyənlərə qəzəblənir, "sevgilisini" başqa yerlərdə axtarmaq üçün bəhanələr uydururdu. Bundan əvvəlki itməsində elədiyi kimi, Şəms Şama getmiş ola bilməzdimi?" [3, s.275] Quyu motivi Pamukun sonrakı romanlarında da (Mənim adım qırmızı, Qırmızı saçlı qadın) iştirak edir.

"Qara kitab" romanında Cəlal, Mövlanə kimi yaddaşının itməsindən qorxduğu üçün rəvayətlər danışırdı. Qəzetdə çap etdirdiyi köşə yazıları, Röya ilə evə çəkilib ona yazmaq üçün danışdıqları da başqası olmaq cəhdləri idi. "Cəlala görə, özləri olmağa uzun müddət dözə bilməyən, ancaq bir başqasının cildinə girəndə, sakitlik tapan bütün adamlar kimi, Mövlana da bir rəvayətə başlayanda, ancaq başqasının danışdıqlarını söyləyə bilirdi. Elə başqası olmaq üçün alışıb-yanan büsbütün bədbəxtlərdən ötrü rəvayət danışmaq öz darıxdırıcı cisimlərindən və ruhlarından qurtulmaları üçün kəşf edilən hiylədir" [3, s.274].

Mətndə hürufizm və onun görkəmli yaradıcısı olan Fəzlullah Nəiminin fəlsəfəsi ilə mətnlərarası əlaqə vardır. Qalib Röya və Cəlalın inandığı ideyanın – solçuluğun köklərini nəqşibəndilikdə, bir az da dərinə getdikdə isə hüru-

fizmdə axtarır. Bunun üçün Naimlə birlikdə arxivdə uzun axtarışlarla məşğul olur. Bu da onun dəyişmə, özünü dərketmə prosesində başlıca rollardan birini oynayır. Cəlalın evində müxtəlif qəzet və jurnallardan kəsilmiş üz şəkilləri və hürufilərin də simaya görə taleyi yozma, gələcəyi görmə düşüncələrini araşdıran Qalib əsərin sonunda həqiqəti tapması, Jan-Batist Qrenuy (Patrik Züskind "Ətriyyatçı") kimi sevimli iksiri taparaq insanlığı dərk etməsi və nəticədə müridi Cəlala çevrilməsi (burada Frans Kafkanın "Çevrilmə" romanı da alluziya, effekt kimi çıxış edir) prosesi mürəkkəb kompozisiya ilə təqdim edilmişdir. Arxiv araşdırmalarının, ümumilikdə əsərdəki bütün axtarışların kökü bir tarixçəyə bağlanır, kələfin ucunu nə qədər axtarsalar da, tapılması çətin olur. "Qalib demək istəyirdi ki, bütün hərflərin, bütün sözlərin, bütün o qurtuluş arzularının, işgəncə, rəzalət məqamlarının bu arzuların, məqamların sevinci, kədəriylə qələmə alınmış bütün yazıların danışdığı bircə tarixçə var!" [3, s.85]

Cəlalın ilk köşəsi olan "Boğazın suları çəkiləndə" yazısında bir tərəfdən hər şeyin təkrar olunması, yenidən yaşanmağa məhkumluğu göstərilsə də, digər tərəfdən müəllifin qələmində qiyamətin real olaraq yaşana bilməsinin utopik göstəricisidir. Qiyamətin yaşadığımız dünyadakı mövcud olması fikri də hürufilərdən gəlir. "Cəlalın "Boğazın suları çəkiləndə" yazısı hər nə qədər yaxınlaşan bir fəlakəti xəbər versə də, Hürufilərin inandıqları, Fəzlullahın xəbər verdiyi qiyamətə uyğun mahiyyət daşıyır. Romanda Cəlalla Fəzlullahın eyniləşən şəxsiyyəti bu mahiyyəti daha mənalı edir. Xüsusilə, Hürufilərin xəbər verdiyi qiyamət bu dünya üzərində gerçəkləşəcək, sonrasında da həyat yenə bu dünya üzərində başlayacaqdır" [5, s.87].

Fateh Mehmet Üçüncünün "Hərflərin sirri və sirrin itməsi" (Əsrar-i-hüruf və sirrin itməsi") əsəri mətn içində mətndir. Burada Mövlanə-Şəms əhvalatından sonrakı və Şeyx Qalib "Hüsn və Eşq"dən əvvəlki dövrlərin mistik fəlsəfi təlimi olan hürufilikdən bəhs edilir. Hurifizmdəki simvollar sistemi Qalibin Cəlala çevrilmə prosesini sürətləndirir, digər tərəfdən romandakı başdan-ayağa detektiv üslubunda davam edən sirrin daha də dərinlərə çəkilməsinə xidmət edir. "Fəzlullaha görə, səs varlıqla yoxluq arasındakı ayırma xəttiydi. Çünki qeyb aləmindən maddi aləmə keçən, əllə toxunmaq mümkün olan hər şeyin çıxaracağı səs vardı: "ən səssiz" şeyləri belə bir-birinə vurmaq bunu başa düşməyə bəs edirdi. Səsin ən təkmilləşmiş formasısa, təbii ki, sözdür, "kəlam" deyilən ali şeydir, "kəlmə" adlanan sehrdir, o da hərflərdən düzəlirdi" [3, s.313].

Bu təlim Qalibin Cəlala çevrilməsinə ciddi təsir edir. "Artıq güzgünün qabağında durub sifətindəki hərfləri oxumaq üçün hazır idi... Cəlalın yazdığı hər şeyi bilirdi, elə bil özü yazmışdı" [3, s.337-340]. Qalib də hürufilər kimi insanın zahiri vasitəsi ilə daxilini görməyi öyrənir, yuxuları yorumlayır. Və bəzən də olacaqları yuxusunda görür.

Romanda Türkiyənin sonuncu divan şairi sayılan Şeyx Qalibin "Hüsn və Eşq" poemasıdır. Eşqin Hüsnə qovuşması üçün Qəlblər ölkəsinə səfər etməsi və nəticədə özünə qovuşması "Sən sevgilinsən, sevgilin də sən: hələ dərk eləməmisənmi?" [3, s.385], Qalibin əsər boyu Röya ilə Cəlalı axtarması, sınaqlardan keçməsi Cəlala və əslində, özünə çevrilməsi arasında paralelliklər mövcuddur.

"Qara kitab"da yazıçı ustalıqla Mövlanə Cəlaləddin Rumi ilə bağlı əhvalatlardan başlayaraq, mifik-mistik mətnlərdəki təkrarlanmaları, Qərb romanlarından da istifadə etməklə, dünyanı vahid mətn kimi qavramağın, hər şeyin, ən əsas da yazının təkrar olunması fikrini ortaya qoyur. Hətta yuxuda mətnə çevrilərək gerçəkliyi əks etdirir, onun təkrarı kimi çıxış edir. Qalib Röyanın Ələəddinin dükanında bir kuklaya sarılaraq, ölməsini öncə yuxusunda görür. Yazıçının sonda gəldiyi qənaət hər şeyin sonsuz və bir-biri ilə əlaqədə olan mətndən ibarət olduğunu bir daha xatırladır. "Çünki heç bir şey həyat qədər heyrətamiz ola bilməz. Yazıdan başqa. Yazıdan başqa. Bəli, təbii ki, yeganə təsəlli olan yazıdan başqa" [3, s.482].

**Nəticə / *Conclusion***

Orxan Pamukun "Qara kitab" əsəri Türkiyə postmodern ədəbiyyatının manifesti sayıla biləcək romanlarından biridir. Tədqiqatçılar bu əsəri Pamuk yaradıcılığının zirvə romanı kimi xarakterizə edirlər. Zaman və məkanca bir-birindən fərqlənən əsərləri kollaj edərək, bir kompozisiya üzərinə yerləşdirən və nəticədə 1980-ci illər ölkəsinin gerçəkliklərinə işıq salmağı bacaran Orxan Pamukun "Qara kitab" romanı təkcə türk ədəbiyyatının deyil, ümumilikdə dünya nəsrində özünəməxsus yer tutmaqdadır.

**Ədəbiyyat / *References***


1. Marcel Proust. İtmiş zaman izinde – Albertine Kayıp. Yapı Kredi yayınları, 2016.
2. Məhəmməd Füzuli. Seçilmiş əsərləri. Altı cilddə II cild. Bakı: Şərq-Qərb, 2005.
3. Orxan Pamuk. Qara kitab. Bakı: Qanun, 2013.
4. Orhan Pamuk. Öleki renkler. İstanbul: İletişim yayınları, 1999.
5. Recai Demir. Orhan Pamuk'un "Kara kitap" romanında hürufilik inancının izleri. Yeni Türk Araşdırmaları dergisi, Ocak-Haziran 2019.
6. Stephen S. Bush. Nothing Outside the Text: Derrida and Brandom on Language and World. Contemporary Pragmatism Editions Rodopi Vol. 6, No. 2 (December 2009).


## Деконструкция в романе Орхана Памука «Чёрная книга»

**Мехман Гасанли**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: mehman.hesen@gmail.com

**Резюме.** В статье говорится о связи романа «Чёрная книга» одного из известных представителей современного турецкого романа Орхана Памука с написанными до него различными текстами, привлечено внимание к вопросу о месте этих связей между ними. В своём романе «Чёрная книга» Орхан Памук успешно применил технику деконструкции различных текстов с вложением их в новый текст в едином сюжете. С целью воплощения турецкой действительности 1980-х годов для читателей, в романе «Чёрная книга» восточные и западные источники представлены в одном тексте.

В статье в романе «Чёрная книга» к исследованию привлечены символическая часть, значимые в данную эпоху поиски своей идентификации, связи с различными текстами.

**Ключевые слова:** Орхан Памук, «Чёрная книга», деконструкция, идентификация, интертекстуальность